*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 avqust 2020-ci il № 46 (2464) Qiymətı 30 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Başqa ölkələrin torpağında bizim gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Balakən regional "ASAN xidmət" mərkəzinin açılışında iştirak edib. Mərkəzlə tanışlıqdan sonra Prezident İlham Əliyev ASAN könüllüləri ilə görüşüb.*

*Dövlətimizin başçısı görüşdə çıxış edib.*



Ölkə başçısı qeyd edib ki, Balakəndə yeni "Asan xidmət" mərkəzinin açılması regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı xətti ilə icra olunub.

Balakən rayonunda infrastruktur layihələri ilə bağlı önəmli məsələlərə toxunan Prezident İlham Əliyev çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də söz açıb.

- Əlbəttə, bu gün mən çox sevinirəm ki, bizim gənclərimiz biliklidir, savadlıdır, vətənpərvərdir. Bu yaxınlarda Ermənistan-Azərbaycan sərhədində erməni silahlı təxribatının qarşısını alarkən Azərbaycan əsgərləri, zabitləri, - onların mütləq əksəriyyəti gənclərdir, - öz peşəkarlığını, cəsarətini göstərdilər, düşməni yerinə oturtdular. İmkan vermədilər ki, düşmən öz mövqelərini yaxşılaşdırsın. İmkan vermədilər ki, bizim torpaqlarımıza onların ayağı dəysin.

Bildiyiniz kimi, Azərbaycanın düşmənə layiqli cavab verməsi və beynəlxalq ekspertlərin ümumi rəyinə görə qələbənin qazanılması cəmiyyətdə ruh yüksəkliyini daha da artırdı. Yenə də ön sıralarda gənclər olub. Mən bu ayın ortasında Nazirlər Kabinetinin toplantısında bu məsələ ilə bağlı fikirlərimi dedikdən sonra bir həftə keçməmiş 50 mindən çox Azərbaycan gənci Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə üz tutdu və özlərini könüllü olaraq Vətəni qorumaq istəyən insanlar kimi orada qeydiyyata aldırdılar. Bir həftə ərzində 50 mindən çox insan.

Mən demişəm ki, Azərbaycan Ordusu tam komplektləşdirilib və bu gün əlavə canlı qüvvəyə ehtiyac yoxdur. Ancaq əgər ehtiyac olarsa, bir həftə ərzində qeydiyyata alınmış 50 mindən çox insan Vətən uğrunda, torpaq uğrunda vuruşmağa hazırdır.

Bilirsiniz, bu hadisələr Ermənistanın faşist mahiyyətini, onların qorxaq xislətini bir daha göstərdi. Çünki birinci dəfə deyil ki, təcavüzkar döyüş meydanında məğlubiyyətə uğrayandan sonra dinc əhaliyə qarşı hərəkətə keçir. Bizim kəndlərimiz atəşə tutulmuşdur. Namərdlərin bu atəşi nəticəsində 76 yaşlı ağsaqqal həlak olmuşdur. Bu, vəhşilikdir. Müharibəni ordular, əsgərlər, könüllülər aparır. Ancaq bizim mənfur qonşumuz müharibəni dinc əhaliyə qarşı aparır, necə ki, Xocalıda soyqırımı törətmişdir, günahsız insanları - uşaqları, qadınları qətlə yetirmişdir. Xocalıda 613 insan düşmən tərəfindən öldürülmüşdür, 1000-dən çox insan itkin düşmüşdür. Bu insanların "günahı" o idi ki, onlar azərbaycanlı idi. Bu amil erməni millətçilərinə kifayətdir. Bu insanlar əliyalın mülki vətəndaşlar idi. Erməni quldur dəstələri bundan və o vaxt hakimiyyətin zəif olmasından istifadə edərək xalqımıza qarşı vəhşi cinayət, soyqırımı törətmişlər. Eyni addımları bu dəfə də atmaq istəyirdilər. Yoxsa dinc əhalini bombalamağın, artilleriya ilə, minomyotlarla atəşə tutmağın səbəbi nədir? Yenə də deyirəm, onlar döyüş meydanında acizliyini görərək ən çirkin əməllərə əl atırlar. 2016-cı ilin Aprel döyüşləri də məhz bu ssenari əsasında təşkil edilmişdir. O vaxt da Ermənistan tərəfindən zəbt edilmiş mövqelərdən kəndlərimiz müntəzəm olaraq atəşə tutulurdu. Azərbaycan Ordusu çox böyük peşəkarlıqla əks-hücum əməliyyatı keçirərək zəbt olunmuş strateji yüksəklikləri geri qaytardı və düşməni qaçmağa məcbur etdi. Tovuz rayonunda baş vermiş hadisələr də həmin ssenarinin təkrarıdır. Biz bunu bilməliyik. Bilməliyik ki, hansı xislətə malik olan qonşu ilə üzüzəyik. Heç vaxt bunu yaddan çıxarmamalıyıq! Heç vaxt Xocalı soyqırımını yaddan çıxarmamalıyıq və çıxarmayacağıq! Biz düşmənə növbəti dəfə sarsıdıcı zərbə vurandan sonra yenə də gördük ki, onlar nə qədər acizdirlər və heç özləri-özlərinə hörmət etmirlər. Dərhal üzv olduqları Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına - KTMT-yə üz tutdular, onlardan yardım istədilər. Mən demişəm, bir daha demək istəyirəm ki, KTMT-nin bu işlərə heç bir aidiyyəti yoxdur, ola da bilməz. Çünki Ermənistan təcavüzkardır. Onların əsas məqsədi məhz bu idi - dövlət sərhədində münaqişə yaratmaq, sonra bu münaqişədə Azərbaycanı günahlandırmaq, daha sonra KTMT-yə müraciət edib hərbi yardım istəmək. Onların çirkin məqsədləri bundan ibarət idi və bu çirkin oyunlara KTMT-nin üzvlərini cəlb etmək istədilər, amma alınmadı. KTMT heç bir bəyanat vermədi, məsələ ilə bağlı ümumi sözlərdən ibarət şərh verdi. Ancaq baxın, Azərbaycanı neçə ölkə dəstəklədi. Birincisi, hər kəs yaxşı bilir və mütəxəssislər bilirlər ki, bu münaqişəni törədən Ermənistandır. Bir daha demək istəyirəm ki, bizim Ermənistan ərazisində hər hansı bir marağımız yoxdur. Orada bizim hərbi hədəflərimiz yoxdur və beynəlxalq ictimaiyyət də bunu çox yaxşı bilir. Məhz buna görə və təkcə buna görə yox, ümumiyyətlə, Azərbaycanın artan nüfuzuna görə bir neçə beynəlxalq təşkilat açıq şəkildə bizi dəstəklədi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası beş ölkədən ibarətdir. İslam Əməkdaşlıq Təşkilatı 57 ölkədən ibarətdir. Qoşulmama Hərəkatı 120 ölkədən ibarətdir. Bir sıra ölkələr, ilk növbədə, qardaş Türkiyə Azərbaycana birmənalı dəstək verdi. Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan artıq bir neçə dəfə bu məsələ ilə bağlı çox açıq, kəskin və prinsipial mövqe nümayiş etdirdi. Bu, bir daha göstərir ki, Türkiyə və Azərbaycan hər zaman olduğu kimi, bir yerdədir, yaxşı günlərdə də, çətin günlərdə də. Biz bir-birimizə arxalana bilərik və bizim gücümüz birliyimizdədir. Bax, bu beynəlxalq təşkilatlar və bir neçə ölkə, onların rəsmi şəxsləri bəyanatlar verərək Azərbaycana dəstək göstərdilər.

O ki qaldı, KTMT-yə onu da bildirməliyəm ki, bu təşkilatın altı üzvündən dördü beynəlxalq təşkilatlarda bu məsələ ilə bağlı qəbul edilmiş bəyanatlar vasitəsilə Azərbaycanı dəstəklədi. Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzvüdür. Qazaxıstan və Qırğızıstan, eyni zamanda, KTMT-nin üzvüdür. Deməli, KTMT-nin iki üzvü Azərbaycanı bu təşkilat vasitəsilə dəstəkləyir. Belarus Qoşulmama Hərəkatının üzvüdür. Qoşulmama Hərəkatının bəyanatı, o cümlədən Belarusun mövqeyidir. Tacikistan İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. İslam Əməkdaşlıq Təşkilatı bu sərhəd münaqişəsi ilə bağlı açıq mövqe ortaya qoyub. Yəni, dörd ölkə artıq Azərbaycanın yanındadır və Ermənistanı kim dəstəklədi? Mən görmədim, gözümə sataşmadı. Bir də ki, KTMT-nin üzvləri Ermənistanın indiki rəhbərliyini necə dəstəkləyə bilər?

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Prezident İlham Əliyev Qəbələdə general Polad Həşimovun xatirəsinin əbədiləşdirilməsi ilə bağlı tapşırıq verib

İyulun 29-da Qəbələ rayonunda Əmirvan-Vəndam avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısına məlumat verilib ki, investisiya xərclərindən ayrılmış 13,1 milyon manat vəsait hesabına tikilmiş, uzunluğu 28 kilometr olan yol 13 min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirir. Yolboyu su ötürücü borular, yol nişanları, göstərici lövhələr, siqnal dirəkləri və 5 avtodayanacaq quraşdırılıb. Dəstəmazçay üzərində yeni körpü tikilib.




Prezident İlham Əliyevə 20 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini rayon mərkəzindən və digər yaşayış məntəqələrindən ayıran, Bum-Tikanlı-Abrıx avtomobil yolunun 2-ci kilometrliyində Bum çayı üzərində yeni körpünün tikintisi və Bum qəsəbəsinə gedən 2 kilometrlik avtomobil yolunun bərpası istiqamətində görülən işlər barədə məlumat verildi. Bildirildi ki, yeni körpü 12 aşırımlı olmaqla uzunluğu 310 metr, eni isə 9 metrdir. Bundan əvvəl 11 yaşayış məntəqəsinin əhalisi çayın bir tərəfindən o biri tərəfinə keçmək üçün təqribən 30 kilometr əlavə məsafə qət etməli olurdular. Yeni körpünün inşası, həmçinin Bum qəsəbəsindən körpüyə qədər olan yolun yenidən qurulması nəticəsində 20 min əhalinin əlavə yol qət etmədən birbaşa rayon mərkəzinə və qonşu kəndlərə gediş-gəlişini təmin edəcək.

Vəndam kəndində doğulmuş general Polad Həşimovun qəhrəmanlığından danışan və xatirəsinin əbədiləşdirilməsi üçün Qəbələnin küçələrinin birinə onun adının verilməsi və digər müvafiq tədbirlər görülməsi barədə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevə tapşırıqlarını verən Prezident İlham Əliyev dedi:

- Vəndam kəndi bilirsən ki, böyük kənddir, qədim kənddir, qədim yaşayış yeridir. Qəbələ şəhərindən sonra ikinci böyük yaşayış məntəqəsidir. Kəndin həm Qəbələ rayonunda, həm ölkə ərazisində xüsusi yeri vardır. Kəndin ziyalıları, ağsaqqalları bizim fəxrimizdir.

Vəndam kəndinin yetirməsi olan general Polad Həşimov namərd, mənfur ermənilər, Ermənistan tərəfindən təşkil edilmiş təxribat nəticəsində Vətən uğrunda döyüşlərdə həlak olmuşdur. Polad Həşimov mənim tərəfimdən iki dəfə dövlət ordenləri ilə təltif edilmişdir. Mənim Sərəncamımla ona general ali hərbi rütbəsi verilmişdir.

Mən sənə tapşırıq verirəm ki, Qəbələ şəhərinin küçələrinin birinə general Polad Həşimovun adı verilsin. Mən mərhum generalın anası ilə danışmışam, ona başsağlığı vermişəm. Onun Vəndam kəndində, Qəbələ rayonunda yaşayan qohumlarına xüsusi diqqət göstərilməlidir. Bilirəm ki, diqqət göstərirsiniz. Daim diqqət mərkəzində olmalıdır. Onun yaxınları, övladları dövlət tərəfindən qayğı ilə əhatə olunur. Müdafiə nazirinə və digər aidiyyəti qurumların rəhbərlərinə müvafiq göstərişlər verilmişdir. General uzun müddət Sumqayıtda yaşamışdır və buna görə Sumqayıtın icra başçısına da göstəriş verilib. Siz də burada general Həşimovun adının əbədiləşdirilməsi ilə əlaqədar müvafiq addımlar atmalısınız.

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Başqa ölkələrin torpağında bizim gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik

**(Əvvəli 1-ci səhifədə)**

Heç kəs üçün sirr deyil ki, Ermənistanın bugünkü rəhbərliyi Soros fondunun təsiri altında olan adamlardan ibarətdir. Onların tərcümeyi-halına baxmaq kifayətdir. Bu gün Ermənistanda hökumətdə, parlamentdə, məhkəmə hakimiyyətində, digər önəmli vəzifələrdə çalışanların bir çoxu Soros fondunun və ona yaxın təşkilatların əməkdaşları olub.

Aydın məsələdir ki, Ermənistanda baş vermiş "inqilab" Sorosun və ona yaxın dairələrin növbəti təxribatı olub. Düzdür, erməni xalqı əvvəlki hakimiyyətə nifrət edirdi, bunu gizlətmirdi. Ermənistanın əvvəlki hakimiyyəti nifrətə layiqdir. Ancaq onun yerinə gələn qruplaşma əvvəlki hakimiyyətdən o qədər də fərqlənmir. Təsadüfi deyil ki, Soros fondu pandemiya ilə əlaqədar bu yaxınlarda Ermənistana 600 min dollar maliyyə yardımı göstərib. Başqa hansı ölkəyə göstərib? Postsovet məkanında heç bir ölkəyə göstərməyib. Azərbaycana göstərib? Yox. Azərbaycanda Soros fondunun izi-tozu da qalmayıb. Çünki onlar burada təxribatla məşğul idilər, gənclərin beyinlərini zəhərləyirdilər. Gəncləri öz dövlətinə qarşı qaldırmaq istəyirdilər. Ona görə onların ayağı kəsildi. Amma onlar Ermənistanda geniş qol-qanad açıblar və gizlətmirlər, bu, açıq bir ianədir. Biz bilirik ki, Ermənistanın indiki rəhbərliyi Soros fondundan altdan-altdan da pul alır, onların agentləridir, onların sifarişini icra edir. Ona görə bu gün Soros fondu açıq-aydın Ermənistan rəhbərliyinə 600 min dollar ianə verib. Bu, KTMT-yə üzv olan ölkələri düşündürməməlidir? Əlbəttə ki, düşündürməlidir. Bir də Ermənistan qorxa-qorxa gedib KTMT-nin ətəyindən yapışarkən yadına salsın ki, KTMT-ni necə diskreditasiya etmişdi, təşkilatın baş katibini həbs etmişdi. Sonra təzyiq nəticəsində onu buraxdı. Ancaq cinayət işi bağlanmadı. KTMT-yə bir il ərzində yeni baş katibin təyin olunmasına imkan vermirdi.

Bir də ki, Ermənistanın indiki baş nazirinin partiyasının adı nədir? Bunu KTMT-də yaxşı bilirlər. Onu əgər Azərbaycan dilinə tərcümə etsən, bunun adı "çıxış"dır. Çünki bu adamlar hakimiyyətə bu şüarla gəliblər. "Çıxış!", haradan çıxış? İki təşkilatdan - KTMT-dən və Avrasiya İqtisadi Birliyindən. Budur onların məramı, budur onların əsl sifəti!

Əlbəttə, indi müxtəlif riyakar addımlarla, bəyanatlarla sübut etməyə çalışırlar ki, onlar bu təşkilatlara sadiqdirlər. Amma bu, yalandır. Onların əsl niyyəti hər kəsə bəllidir. Sorosun tör-töküntüləri KTMT-nin müttəfiqləri ola bilməz. Bu, birmənalıdır. Ona görə indi Ermənistan elə vəziyyətdədir ki, özünü itirib, səhv addımlar atır. Sərhəddəki təxribat hesab edirəm ki, onlar tərəfindən bir sınama cəhdi idi ki, baxsınlar, görsünlər buna kim nə reaksiya verəcək. Gördülər ki, onların müttəfiq saydıqları bütün ölkələr ya bizi dəstəklədilər, ya da neytral qaldılar. Gördülər ki, Azərbaycanın beynəlxalq dəstəyi nə qədər güclüdür. Ona görə bu, onlar üçün dərs olmalıdır. Erməni xalqı nəhayət başa düşməlidir ki, əgər onlar normal ölkədə yaşamaq istəyirlərsə, erməni silahlı qüvvələri mütləq bizim torpaqlarımızdan çıxmalıdır. Bu, bizim tarixi, əzəli torpağımızdır. Biz heç vaxt işğalla barışmayacağıq. Ərazi bütövlüyümüzün bərpası bizim üçün bir nömrəli məsələdir. Digər tərəfdən, Ermənistan bütün regional layihələrdən təcrid edilib. Biz onları təcrid etmişik. Bizim bölgəmizin yeni enerji, yeni nəqliyyat, yeni telekommunikasiya xəritəsinə baxın, orada Ermənistan yoxdur. Bütün bu xətlər, o cümlədən bizim təşəbbüsümüzlə reallaşdırılan layihələr Ermənistandan yan keçib. Artıq onlar regional əməkdaşlıqdan tamamilə kənardadırlar. Bunu biz etmişik və gizlətmirik. Bütün imkanlarımızı səfərbər edib bundan sonra da onları təcrid vəziyyətində saxlayacağıq. Onlar bu imkanlardan məhrum olunublar. Ancaq biz öz torpaqlarımıza qayıdacağıq, mütləq qayıdacağıq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək.

Mənə bu yaxınlarda məlumat verildi ki, Ermənistanın baş naziri Azərbaycana yeddi şərt irəli sürüb. Hesab edirəm, ağlı başında olan hər bir adam açıq-aydın görə bilər ki, bu şərtlərin heç biri qəbuledilən deyil. Bu şərtlərdən biri odur ki, Azərbaycan qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparsın. Bu, mümkün deyil. Biz bunu dəfələrlə bildirmişik. Çünki "Dağlıq Qarabağ respublikası" yoxdur. Belə bir "respublikanı" heç kim tanımır. Ermənistanın hünəri varsa, tanısın "Dağlıq Qarabağ respublikası"nı. Bax, mən deyirəm, Ermənistan hakimiyyəti, tanıyın onu. Bu gün tanıyın, tanımırsınızsa, deməli qorxursunuz. Gedin, ağlınızı başınıza yığın! Quldur, kriminal rejimlə heç bir danışıqlar aparılmayacaq. Ona görə, bəri başdan onlar bilməlidirlər ki, bu, tamamilə qəbuledilməzdir. Digər şərtlər də buna bənzər şərtlərdir. Qəbuledilməz şərtlər irəli sürməklə Ermənistan faktiki olaraq danışıqlar prosesini məhv edir və danışıqlar formatını dəyişdirmək istəyir. Çünki danışıqlar Azərbaycanla Ermənistan arasında aparılır. Bu, Minsk qrupunun və onun həmsədrlərinin açıq mövqeyidir. Dəfələrlə bu mövqe onlara çatdırılıb, həm rəsmi qaydada, həm də bağlı qapılar arxasında. Amma bunların hikkəsinə baxın, yenə də bu şərti irəli sürürlər ki, Azərbaycan dırnaqarası "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. "Dağlıq Qarabağ respublikası" yoxdur. Qoy, erməni xalqı özünü aldatmasın. Biz bütün qalan şərtləri də rədd edirik, o kağızı da zibil vedrəsinə atırıq. Ancaq erməni xalqı yaxşı düşünsün, yaxşı fikirləşsin. Əgər onlar bundan sonra da cinayətkarların girovu kimi yaşamaq istəyirlərsə, onda indiki hakimiyyətin ağılsız və təhlükəli addımlarına göz yumsunlar. Erməni xalqı 1998-2018-ci illərdə Ermənistanda cinayətkar, kriminal rejimin girovu idi. İndi isə Soros rejiminin girovudur.

Onlar başa düşməlidirlər ki, erməni silahlı qüvvələri bizim torpaqlarımızdan çıxmasa, sülh olmayacaq və onlar özləri peşman olacaqlar. Nə qədər ki, gec deyil, erməni silahlı qüvvələri bizim torpaqlarımızdan çıxmalıdır. Bunu beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi tələb edir. Erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bunu tarixi həqiqət tələb edir. Çünki Dağlıq Qarabağ bizim tarixi torpağımızdır. Ermənistanın baş naziri deyir ki, "Dağlıq Qarabağ Ermənistandır" və ondan sonra hansı danışıqlardan söhbət gedə bilər. Çünki danışıqların əsas mahiyyəti ondan ibarətdir ki, işğal edilmiş torpaqlar azad olunsun. Biz bunun ətrafında danışıqlar aparmalıyıq. Yoxsa, nəyin ətrafında? Biz dırnaqarası "Dağlıq Qarabağ respublikası"na müstəqilliyin verilməsi haqqında heç vaxt danışıqlar aparmamışıq, heç vaxt! Bu, heç vaxt danışıqlar predmeti olmayıb. Mən bu haqda ümumiyyətlə heç vaxt danışmamışam və danışmaq fikrim də yoxdur. Biz onun ətrafında danışıqlar aparırıq ki, işğal edilmiş torpaqlar nə vaxt, hansı ardıcıllıqla azad edilsin. Əgər Ermənistanın baş naziri deyirsə ki, "Dağlıq Qarabağ Ermənistandır", əgər deyirsə ki, "biz qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmaq istəyirik", deməli o, danışıqları məhv edir. Mən 7 şərtin qarşısına bir şərt qoyuram, bir şərt - erməni silahlı qüvvələri işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, Azərbaycan vətəndaşları öz doğma dədə-baba torpaqlarına qayıtmalıdırlar! Budur, mənim şərtim və məsləhət görürəm ki, onlar bu şərti qəbul etsinlər.

Biz öz doğma torpaqlarımıza qayıdacağıq və bu gün işğal altında olan şəhərlərimizdə "ASAN xidmət" mərkəzləri yaradacağıq. Bu mərkəzlərdə bizim gənclərimiz çalışacaqlar. Erməni vandalları tərəfindən dağıdılmış şəhərlərimizi, tarixi, dini abidələrimizi bərpa edəcəyik və öz torpağımızda yaşayacağıq. Başqa ölkələrin torpağında bizim gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan-Türkiyə birgə genişmiqyaslı taktiki təlimləri davam edir

*Müasir geosiyasi şəraitdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi ölkəmizin xarici siyasətinin mühüm tərkib hissəsidir. Hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət, hərbi və digər sahələr üzrə aidiyyəti qurumlarının rəhbərlərinin qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayıb və bütün sahələrdə əlaqələr uğurla inkişaf edərək ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəyə çatmasına səbəb olub.*



Tarixdə yaşadıqları çətinliklərə baxmayaraq, Türkiyə və Azərbaycan xalqları hər zaman bir-birinin yanında olublar. Ulu öndər Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan və Türkiyə arasında qardaşlıq əlaqələri daha da genişlənib. Bu münasibətlər davamlı olaraq inkişaf edir. Bakı və Ankaranın regionda və beynəlxalq aləmdə baş verən hadisələrə münasibəti hər iki tərəfin maraqlarına uyğun şəkildə həyata keçirilir.

Azərbaycan ilə Türkiyə arasında əlaqələrin inkişafının əsas amilləri ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələrdir. Böyük Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və ulu öndər Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fikirləri həm Türkiyədə, həm də Azərbaycanda iki ölkə arasındakı münasibətlərin tarixini, bu gününü və perspektivlərini dəqiq ifadə edən ən mükəmməl formuldur. Azərbaycan beynəlxalq aləmə inteqrasiyada, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi, hərbi-texniki və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığa böyük əhəmiyyət verir.

Əsası Ulu Öndərimiz tərəfindən qoyulan Türkiyə ilə dostluq, qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Hərbi əməkdaşlıq haqqında sazişə əsasən, keçirilən hərbi təlimlər bu birliyin, dostluğumuzun və qardaşlığımızın daha bir parlaq ifadəsidi.

Azərbaycanla Türkiyə arasında bütün sahələrdə uğurla inkişaf edən əməkdaşlıq əlaqələri hərbi sahəyə də sirayət edir. Ümumiyyətlə, Azərbaycan müstəqillik əldə etdikdən sonra Bakıya hərbi sahədə dəstək verən ilk dövlətlərdən biri məhz qardaş Türkiyə olub. Türkiyənin dəstəyi sayəsində Azərbaycan Ordusunda peşəkarlığın səviyyəsi artırılıb, ordumuzun maddi-texniki bazası gücləndirilib. Mütəmadi olaraq keçirilən ikitərəfli hərbi təlimlər də hərbi sahədə əməkdaşlığın inkişaf etdirilməsinə öz töhfəsini verir.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra iki ölkə arasında ortaq tarixi və mədəni əlaqələr əsasında çoxistiqamətli həmrəylik çərçivəsində Türkiyə-Azərbaycan münasibətləri sürətlə inkişaf edərək bir tərəfdaşlıq səviyyəsinə çatıb. Türkiyə Azərbaycanı regionda çox əhəmiyyətli bir strateji tərəfdaş olaraq görür və müxtəlif sahələrdə möhkəm təməllərə əsaslanan əhatəli əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün səy göstərir. Bu mənada "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilə iki ölkə arasında siyasi, hərbi, iqtisadi, ticari, mədəni, elmi sahədə əlaqələrin bütün istiqamətlərini əhatə edən bir çərçivəyə malikdir. Bu gün iki ölkə arasında hərbi əlaqələr isə yeni müstəviyə qədəm qoyub və strateji perspektivi müəyyənləşdirməkdədir. Hərbi əməkdaşlığın əsas ana xəttini hərbi təlimlər təşkil etdiyindən Türkiyə ilə birgə hərbi təlimlər Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir.



İki ölkə arasında hərbi əməkdaşlığın bugünkü vəziyyətini iki vacib məsələ müəyyənləşdirir:

Birincisi, NATO ilə əməkdaşlıq sənədləri. Bu çərçivədə NATO-nun aparıcı ölkələrindən olan Türkiyə Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsinə köməklik göstərir;

İkincisi, Azərbaycanın təhlükəsizlik sənədləri və iki ölkə arasında imzalanmış strateji müqavilələr. Qeyd etmək lazımdır ki, iki ölkənin prezidentləri tərəfindən Bakıda imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilədə nəzərdə tutulanlar Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının güclənməsinə təkan verir.

Gələnən qənaətə görə, iki ölkə arasında hərbi əməkdaşlıq baxımından perspektiv planlar da mövcuddur. Buraya hərbi kadrların hazırlanması, maddi-texniki təchizat məsələlərindən tutmuş, müdafiə sənayesi sahəsində yeni birgə əməkdaşlığa qədər məsələlər daxildir. Məhz bu baxımdan tərəflər o fikri bölüşürlər ki, perspektivdə iki ölkə arasında hərtərəfli hərbi əməkdaşlığın gücləndirilməsi istiqamətində yeni imkanlar mövcuddur. Türkiyə Azərbaycana taktiki və strateji dövrdə hərbi dəstəyini davam etdirməkdə qərarlıdır.

Nəhayət, iki ölkə arasında hərbi təhsil, kadrların hazırlanması sahəsində əməkdaşlığın inkişafı prioritet sahələrdən biridir. Bu istiqamətdə ciddi planların olduğu bildirilir.

Türkiyə ilə birgə hərbi təlimlər bir neçə səbəbdən Azərbaycan üçün vacibdir.

Birincisi, bu təlimlər vasitəsilə Azərbaycan-Türkiyə strateji müttəfiqliyi güclənir. İkincisi, Türkiyə NATO ölkəsidir və Azərbaycan Ordusu Türkiyə ordusu ilə birgə təlimlər vasitəsilə NATO standartlarına yiyələnir. Üçüncüsü, Türkiyə ordusu terrorçu PKK ilə mübarizədə böyük təcrübəyə malikdir və döyüşlərin əsas hissəsi dağlarda baş verir. Dağlıq Qarabağ və işğal altındakı Azərbaycan rayonları da dağlıq bölgələrdə yerləşir. Bu baxımdan Türkiyə ordusunun dağ döyüş təcrübəsini öyrənmək Azərbaycan Ordusu üçün mühüm əhəmiyyəti kəsb edir.



Bu günlərdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq ölkəmizdə hər iki ölkənin Quru Qoşunları və Hərbi Hava Qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinə start verilib.

Birgə təlimlərə iki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, həmçinin hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb edilib.

Plana əsasən, təlimlər avqustun 1-dən 5-dək Quru Qoşunlarının da cəlb edilməsi ilə Bakıda və Naxçıvanda, hərbi aviasiya vasitələrinin iştirakı ilə isə iyulun 29-dan avqustun 10-dək Bakı, Naxçıvan, Gəncə, Kürdəmir və Yevlax şəhərlərində keçirilməsi nəzərdə tutulub.

Təlimin planına uyğun olaraq, Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin birinci mərhələsi keçirilib.

Plana əsasən, mövcud vəziyyət qiymətləndirilib, döyüş tapşırıqları dəqiqləşdirilib, real şəraitdə ərazinin kəşfi aparılıb.

Müvafiq məruzələr dinlənildikdən sonra təlimə cəlb olunan qoşunların qəbul etdiyi qərara əsasən, tətbiqi üzrə tapşırıqlar ərazidə aydınlaşdırılıb.

Naxçıvanda Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirilir.

Təlimin ssenarisinə əsasən, Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri tam döyüşə hazırolma vəziyyətinə gətirilərək "Həyəcan" siqnalı ilə təlim rayonuna çıxarılıb.

Komanda məntəqələrindən idarəetmə sistemləri vasitəsilə qoşunların fasiləsiz idarə olunması praktiki yerinə yetirilir, birləşmə və hissələr döyüşə hazırolma planlarına uyğun olaraq fəaliyyət göstərir.

Döyüş təyyarələri, hərbi daşıma və zərbə helikopterlərinin cəlb edildiyi təlimdə çətin pilotoji manevrlərlə təlimməşq uçuşları keçirilir.

Hərbi əməkdaşlıq haqqında sazişə əsasən, ölkəmizdə keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki təlimlərinin növbəti mərhələsi keçirilib.

Plana əsasən, tapşırıqların yerinə yetirilməsinin operativliyi və koordinasiya edilməsi, qarşılıqlı fəaliyyətin və uzlaşmanın təşkili, döyüş əməliyyatları zamanı təminatın həyata keçirilməsi, eləcə də şəxsi heyətin, silah və döyüş texnikasının səmərəli fəaliyyəti yoxlanılıb.

Təlimin ssenarisinə uyğun olaraq təyin edilmiş məntəqələrə çıxarılan motoatıcı və zirehli texnika bölmələri tapşırıqları icra ediblər.

Təlimlər davam edir. Bu gün belə bir genişmiqyaslı hərbi təlimlərin keçirilməsi və bu təlimlərin strateji əməkdaşlıqdan yaranması region və Türk dünyası üçün önəmli məqamdır. Bu təlimlər birmənalı olaraq yeni inkişaf dövrünü yaşayan Azərbaycan Ordusu üçün çox böyük əhəmiyyət kəsb edir.

**"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Orduda gənc zabitlərlə təlim-metodiki toplantı keçirilib



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsini bu il bitirmiş, hərbi hissələrdə müvafiq vəzifələrə təyin edilərək xidmətini davam etdirən zabitlərlə keçirilən təlim-metodiki toplantıda əsas diqqət, zabitlərin taktiki biliklərinin və qərar qəbuletmə bacarıqlarının artırılmasına yönəldilib.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzindəki müxtəlif təlim trenajorlarında şəxsi heyətin sürücülük və atəş bacarıqları praktiki olaraq yoxlanılıb. Toplantıya cəlb edilən zabitlərin virtual təlim meydançasında qazandıqları biliklərin real döyüş şəraitinə yaxın təşkil edilmiş məşğələlərdə daha da təkmilləşdirilməsi məqsədilə praktiki atış çalışmaları yerinə yetirilib.

Toplantı çərçivəsində Naxçıvan Muxtar Respublikasının tarixi və mədəni yerlərinə ekskursiyalar təşkil olunub. Həmçinin gənc zabitlər Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrində, ön xətdəki mövqelərində şəxsi heyətin sosial-məişət və xidmət şəraiti ilə tanış olublar.

Təlim toplantısı yekun tədbiri ilə başa çatıb. Tədbirdə polkovnik Mənsum Əhmədov məqbullar götürülən zaman gənc zabitlərin yüksək nəticələr göstərdiklərini qeyd edib.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev hərbi hissələrdə müvafiq vəzifələrə təyin edilərək xidmətini davam etdirən zabitlərlə keçirilən toplantının əhəmiyyətindən danışıb və toplantıda nümunəvi iştirak etdiklərinə görə, zabitlərin bir qrupuna təşəkkür elan edərək həvəsləndirib.

**Baş leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Qurban bayramı münasibətilə şəhid ailələri ziyarət edilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, hərbi qulluqçular Qurban bayramı münasibətilə şəhid ailələrini ziyarət edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, bayram münasibətilə ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi yad edilib, şəhid ailələrinə baş çəkilib, onlara Müdafiə Nazirliyi rəhbərliyinin təbrikləri çatdırılıb və bayram sovqatları təqdim olunub.

# Azərbaycan Müdafiə Nazirliyi: General-mayor Polad Həşimovun həlak olması ilə bağlı manipulyasiyalar şəhidlərimizin ruhuna hörmətsizlikdir

General-mayor Polad Həşimovun həlak olması ilə bağlı sosial mediada və bəzi saytlarda həqiqətə uyğun olmayan məlumatın və videomaterialın yayılması böyük təəssüf hissi doğurur.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, videomaterialda 2016-cı ilin Aprel əməliyyatları ilə bağlı iddialara cavab olaraq bildiririk ki, nəinki Talış kəndi istiqamətində, o cümlədən azad edilmiş heç bir yüksəklikdən bir addım da geri çəkilmə olmayıb və həmin yüksəkliklərə sancılan Azərbaycan bayraqları bu gün də orada dalğalanır.

Videoda general-mayor P.Həşimovun şəhid olması ilə bağlı irəli sürülən fərziyyələri qəti surətdə rədd edir və bunu şəhidlərimizin ruhuna hörmətsizlik kimi qiymətləndiririk. İddia edildiyi kimi general "cəbhə xəttindən 31 kilometr geridə" deyil, tabeliyində olan əsgərlərlə bir yerdə döyüşdüyü səngərdə şəhid olub. Buna görə də həmin materiallarda irəli sürülən iddiaların heç bir əsası yoxdur, yalandır və düşmən maraqlarına xidmət edir.

Bir daha kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciət edərək, təmsil olunduqları media orqanlarında qeyri-peşəkar açıqlamalara, təhrif olunmuş və yanlış fikirlərə yer ayırmamağı, ümumilikdə şəhidlərlə bağlı yayılan xəbərlərə xüsusi həssaslıqla yanaşmalarını və daha konstruktiv mövqe nümayiş etdirmələrini tövsiyə edirik.

Müdafiə Nazirliyi mediamızdan və sosial şəbəkə istifadəçilərindən şəhidlərə və onların ailələrinə hörmət, hərbi qulluqçularımızın vətənpərvərlik ruhunun və döyüş əzminin yüksəldilməsinə xidmət edən çıxışlar gözləyir.

*Nümunəvi xidmət*

# "Vətən qürur mənbəyimizdir"

*Azərbaycan cəmiyyətində hər zaman ordu amili, ordu dəyərləri uca tutulub və artıq bu bizim mənəvi-psixoloji kodeksimizə çevrilib. Uzun illərdir bu qiymətli sərvətimiz dünyanın mütərəqqi mənəvi dəyərlərindən də istifadə edərək zənginləşir, püxtələşir və inkişaf edir. İnkişafının qürur duyulası dönəmində olan Azərbaycan Ordusunun şəxsi heyəti bu gün yaşadığı ömrün tarixini yazmaqla yanaşı, ömrünü xalqının, millətinin, ordusunun inkişafına həsr edir, onun da tarixinin yazılmasında yaxından iştirak edir. Sözsüz ki, örnək ola biləcək bir ömür yaşamağın və yazmağın özü fədakarlıq, eyni zamanda, hünərdir. Azərbaycan Ordusunun tarixinin yazılmasında iştirak edən hərbi qulluqçulardan biri də gizir Elçin Qəhrəmanovdur.*



"Elçin o hərbi qulluqçulardandır ki, üzərinə düşən işi və vəzifəni layiqincə yerinə yetirərək, Vətənə xidməti həyatının məqsədinə çevirib", - deyə zabit Rəşad Əliyev onun haqqında xoş sözlərlə söhbətə körpü saldı. - Münaqişəyə cəlb olunduğumuz indiki dönəmdə biz həyatı elə yaşamalıyıq ki, özümüzə, ailəmizə, cəmiyyətimizə, millətimizə, xalqımıza və nəhayət ordumuza faydalı olaq. Praqmatik düşünsək, yaşamaq fayda vermək deməkdir. Hesab edirəm ki, gizir Elçin Qəhrəmanov da Azərbaycan Ordusuna faydalı ola biləcək hərbi qulluqçulardandır. Az müddətdir xidmət etməsinə baxmayaraq, hərbi kollektiv arasında kifayət qədər nüfuz qazana bilib. Bu da onun yaxşı hərbi qulluqçu olmasından xəbər verir.

Gizir Elçin Qəhrəmanov söhbət əsnasında bildirdi ki, hərbçinin əsl hərbçi kimi yetişməsində təlim və məşqlərdən əlavə, düşdüyü mühit və şərait də çox böyük rolu vardır. Hərbi qulluqçu onu da qeyd etdi ki, düşdüyü şərait, keçdiyi formalaşma prosesi onun da fəaliyyətinə təsirsiz ötüşməyib.

Həmsöhbətim qeyd etdi ki, ən böyük arzusuna gedən yol yüksək biliklərə yiyələnməkdən keçir: "Ən böyük arzum Ağdamı, Şuşanı, Laçını və digər torpaqlarımızı azad görməkdir. Əlbəttə, bu asan başa gəlməyəcək. Ancaq Azərbaycan Ordusu çətini asan etmək gücündədi. Ordumuzun günbəgün qüdrətlənməsi, hərbçilərimizə olan xüsusi diqqət və qayğı bizim hamımızın mənəvi-psixoloji vəziyyətinə birbaşa təsir edir. Arxamızda güclü dövlətin olduğunu hiss edəndə daha mübariz olur, torpaqlarımızın işğaldan azad edilməsi üçün alışıb yanırıq".

"Vətən mənim və valideynlərim üçün qürur yeridir", - deyə gizir sözünə davam etdi. - Uzun illər xalqımız Qarabağla bağlı xatirələrlə yaşayır. Oradan köçkün düşən insanlar doğma ocağının, yurd-yuva həsrətilə yaşayırlar. Ona görə hərbçi olmuşam ki, torpaqlarımızın azad olunmasında mənim də payım olsun. Valideynlərimi, əzizlərimi Qarabağımızın görüşünə qırurla aparım. Ana torpağıma səcdə edərək mənəvi rahatlıq tapım.

İnanırıq ki, döyüşlər zamanı tökülən qanların, şəhidlərimizin qisası yalnız qələbə ola bilər... Ali Baş Komandanımızın rəhbərliyi ilə qələbə müjdəli sabahlar bizi gözləyir... Daha Vətənimizin, torpağımızın vahid komandanlıq altında birləşən, müasir silahlarla təmin olunan nizami bir ordusu var. Bu nizami ordunun arxasında ona öz misilsiz məhəbbətilə dəstək olan xalqımız dayanır. Ordu, xalq, dövlət birliyi - bax, bu gördüyünüz yüksəkliklərdə keşik çəkən əsgər və zabit heyətinə, o cümlədən ordumuza daim qol-qanad verir. Biz güclüyük. Təkcə silah-sursatımızla, hərbi texnikamızla, mənəvi-psixoloji hazırlığımızla deyil, həm də haqqımızı tələb etməkdə, ədalətimizə güvənməkdə güclü və qüdrətliyik. Bu dəyərlərdir Azərbaycan Ordusunun şəxsi heyətini qələbədən qələbəyə aparan. Qəribsədiyimiz torpaqlar, zirvələr, yüksəkliklər üçrəngli bayrağımızın həsrətindədir, xalqımız da müqəddəs torpaqlarımızın. Qarşılıqlı həsrətə Azərbaycan əsgəri son qoyacaq!

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# "Azərbaycan-Türkiyə qardaşlığı əbədi və sarsılmazdır"

*Ölkəmizdə davam edən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki təlimlərinin iştirakçıları üçün "N" hərbi hissənin əsgər klubunda təntənəli bayram mərasimi keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iki ölkənin dövlət bayraqları ilə bəzədilən salonda əvvəlcə şəhidlərimizin xatirəsi ehtiramla yad edilib, hər iki dövlətin himnləri ifa olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Müdafiə nazirinin Qurban bayramı münasibətilə təbrikləri tədbir iştirakçılarına çatdırılıb.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Azərbaycan və Türkiyə xalqlarının tarixi dostluq, qardaşlıq ənənələrindən, bu münasibətlərin bu gün də möhtərəm prezidentlərimiz cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında daha da möhkəmlənərək uğurla davam etdiyindən danışıb.

Ümummilli liderimiz Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" və Mustafa Kamal Paşanın "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları mərasimin leytmotivinə çevrilib.

Keçən əsrin əvvəllərində Azərbaycan oğullarının Çanaqqala savaşında göstərdikləri qəhrəmanlıq, 1918-ci ildə Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Azərbaycan Əlahiddə Korpusunun döyüşçüləri ilə birlikdə Bakını işğaldan azad etməsi, Kazım Qarabəkir Paşanın rəhbərliyi ilə Naxçıvanda ermənilərin törətdikləri qətliamlara son qoyulması minnətdarlıqla yad edilib.

Cari ilin iyul ayının 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində Ermənistan silahlı bölmələrinin təxribatı nəticəsində baş verən hərbi toqquşma barədə A.Qurbani bildirib ki, ilk gündən qardaş Türkiyə də bizə mənəvi dayaq oldu.

Qeyd edilib ki, Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən illik plana uyğun olaraq ölkəmizdə bu il də reallaşan hər iki ölkənin Quru Qoşunları və Hərbi Hava Qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri yenə də Ermənistan tərəfini qorxuya salıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, düşmən bilməlidir ki, "Ermәni silahlı qüvvələri Azərbaycan torpağından dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bunu tarixi həqiqət tələb edir. Çünki, Dağlıq Qarabağ bizim tarixi torpağımızdır" - kəlamları tədbir iştirakçıları tərəfindən ayaqda alqışlanıb.



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı qrupunun ifasında Türkiyə və Azərbaycan xalqlarının musiqi, mahnı və rəqslərindən ibarət konsert proqramı böyük maraqla qarşılanıb, videoçarxlar nümayiş etdirilib.

Tədbirin sonunda iştirakçılara Abdulla Qurbaninin Bakının işğaldan azad olunmasının 100 illiyi münasibətilə hazırladığı "Azərbaycan-Türkiyə: Qardaşlığın təntənəsi" adlı kitab-albomlar hədiyyə edilib.

# "Azərbaycan Ordusu düşmən müdafiəsinin dərinliyindəki seçilmiş hərbi obyektlərə zərbə endirmək iqtidarındadır və ehtiyac olduqda bunu edəcəkdir"

Azərbaycan Ordusunun minaatan, raket və artilleriya zərbələri nəticəsində guya Ermənistanın mülki infrastrukturuna 300.000 $ dəyərində ziyan vurulması ilə bağlı yayılan məlumat sərhədyanı yaşayış məntəqələrində yerləşən köhnəlmiş və texnogen qəzalar nəticəsində sıradan çıxmış fərdi yaşayış binalarının, uşaq bağçalarının, su və qaz borularının, zavodların, müəssisələrin, bir sözlə illərlə baxımsızlıq səbəbindən onsuz da qəzalı vəziyyətdə olan, yaxud xarabalığa çevrilən obyektləri təmir etməyə gücü və imkanı çatmayan Ermənistan hökumətinin bütün günahı Azərbaycan tərəfinin üzərinə yıxmaq cəhdindən başqa bir şey deyildir.

Müəyyən bir ziddiyyət yaranır. Dövlət sərhədinin Tovuz istiqamətində iyul döyüşləri zamanı Ermənistan Müdafiə Nazirliyi dəfələrlə bəyan etdi ki, hərbi əməliyyatlar zamanı erməni tərəfi "layiqincə" müdafiə olunub, əhəmiyyətli dərəcədə itki verməyib, Ermənistanın yaşayış məntəqələrinə və infrastrukturuna vurula biləcək mümkün dağıntıların qarşısını alıb. Lakin heç iki həftə belə keçməmiş Ermənistan İstintaq Komitəsinin sədri Qayk Qriqoryan Tavuş vilayətinə vurulan "miqyaslı ziyan" barədə həyəcan təbili çalmağa başladı. Göründüyü kimi, Ermənistanın bir rəsmi dövlət nümayəndəsinin açıqlaması digər dövlət rəsmisinin açıqlamasına tamamilə ziddir. Bu da onu göstərir ki, Ermənistan tərəfinin yaydığı hətta rəsmi məlumatlar belə sırf yalan və böhtan üzərində qurulur.

Bir daha bəyan edirik ki, düşmələndən fərqli olaraq Azərbaycan Ordusunun bölmələri mülki vətəndaşları, yaşayış məntəqələrini, yaşayış binalarını və mülki obyektləri heç vaxt hədəfə almır və heç vaxt atəşə tutmur. Azərbaycanın hərbi qulluqçuları heç vaxt mülki əhali ilə savaşmır. Ermənistan tərəfinin bütün iddiaları və ittihamları tam əsassızdır. Bütün bunlar Ermənistanın beynəlxalq ictimaiyyətin və beynəlxalq təşkilatların diqqətini özünə cəlb etmək məqsədilə etdiyi uğursuz cəhddir.

O ki, qaldı Ermənistan-Azərbaycan dövlət sərhədində baş vermiş döyüşlər zamanı Azərbaycan tərəfinin guya TOS-1 ağır odsaçan və "Qrad" yaylım atəşli reaktiv sistemlərindən istifadə olunması ilə bağlı Ermənistanın İstintaq Komitəsinin əsassız iddialarına, birmənalı şəkildə qeyd etməliyik ki, bu döyüşlərdə Azərbaycan Ordusu qeyd olunan silah növlərindən istifadə etməyib. Bu silahlardan və digər daha müasir silah növlərindən Azərbaycan Ordusu yalnız düşmən müdafiəsinin dərinliyindəki seçilmiş hərbi təyinatlı obyektlərin, hərbi infrastrukturun, həmçinin böyük ərazilərdə olan canlı hərbi qüvvəsinin dəqiq atəşlə məhv edilməsi üçün istifadə etməyi nəzərdə tutub. Lakin bilindiyi kimi bu cür obyektlər tərəfimizdən hələlik hədəfə alınmayıb və məhv edilməyib. Əgər erməni tərəfinin iddia etdiyi kimi, Azərbaycan Ordusu adı çəkilən silahlardan istifadə etsəydi, o zaman dağıntıların və dəyən ziyanın miqyası dəfələrlə artıq olardı. Əksinə, bu döyüşlər zamanı düşmən tərəfindən bölmələrimizin mövqeləri ilə yanaşı, yaşayış məntəqələrimiz və mülki obyektlərin də intensiv artilleriya atəşinə tutulması nəticəsində iyulun 14-də Tovuz rayonunun Ağdam kəndinin dinc sakini 76 yaşlı Əziz Əzizov həlak olub. Bununla yanaşı, mülki əhaliyə, dövlət əmlakına, fərdi mülklərə, eləcə də infrastruktur obyektlərinə ziyan dəyib. Hazırda dəymiş zərərin həcmi və dəyəri qiymətləndirilir.

Azərbaycan Ordusunun bölmələri yalnız düşmənin tətbiq etdiyi silah və döyüş vasitələrinin gücü və dağıdıcı imkanlarına uyğun müvafiq adekvat cavab tədbirləri görüb. Əgər Ermənistan tərəfində TOS-1 ağır odsaçan və "Qrad" yaylım atəşli reaktiv sistemlərinin tərəfimizdən tətbiq edilməsi barədə hər hansı bir sübut varsa, onu təqdim etsin.

Bu xəbəri qəti surətdə rədd edir, yayılan məlumatın növbəti yalan olduğunu bildiririk. Ermənistan bu cür dezinformasiya xarakterli məlumatlar yaymaqla hər zaman olduğu kimi bu dəfə də beynəlxalq ictimaiyyəti aldatmağa çalışır.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Hərbi qulluqçumuz xəstəlikdən vəfat edib

Silahlı Qüvvələrin Baş Klinik Hospitalının reanimasiya-anesteziologiya bölməsinin zabiti, tibb xidməti mayoru Cəfərov Teymur Oktay oğlu dünyada yayılan koronavirus (COVID-19) infeksiyasından vəfat edib.

Təəssüflər olsun ki, həkimlərin bütün səylərinə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmayıb və iyulun 31-də səhər saatlarında o, dünyasını dəyişib.

Müdafiə Nazirliyinin rəhbərliyi və hərbi tibb personalı vəfat edən hərbi qulluqçumuzun yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir, səbir diləyir.

Allah rəhmət eləsin!

## Avqustun 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna cari il avqustun 1-dək 112.759.464,65 AZN, 213.577,88 ABŞ dolları, 18.341,0 avro və 5000,0 rubl vəsait daxil olub.

## Ermənistana məxsus növbəti taktiki PUA məhv edilib

İyulun 29-u axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib.

Hava Hücumundan Müdafiə bölmələri tərəfindən düşmənin növbəti PUA-sı dərhal aşkar olunaraq məhv edilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***4 avqust 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi və Əsrik Cırdaxan kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qərvənd, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU

# Xeyirxahlıq və mərhəmət duyğularının ifadəsi

*Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və xüsusi təyinatlı təhsil müəssisələrində, o cümlədən illik plana uyğun olaraq ölkəmizdə keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinə cəlb edilən şəxsi heyət üçün Qurban bayramı münasibətilə tədbirlər keçirilib.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, ölkə Prezidenti cənab İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Qurban bayramı münasibətilə təbrikləri şəxsi heyətə çatdırılıb.

Hərbi qulluqçuların iştirakı ilə qurbanlar kəsilib, onlar üçün bayram süfrələri təşkil olunub.

* * *

Dini əsasda yaşadılsa da, ən müqəddəs bayramlardan biri olan Qurban bayramının böyük mənəvi mahiyyəti vardır. Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra Milli Məclisin 1992-ci ilin 27 oktyabrında qəbul etdiyi "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən, Qurban bayramı dövlət səviyyəsində qeyd edilir.

Ermənistan Azərbaycanla müharibəyə başladı. Qarabağın dağlıq hissəsində də, Ermənistanla sərhəd rayonlarında da ordu hissələri ilə bərabər əhali də döyüşürdü. Bütün bayramlarını, o cümlədən dini bayramlarını unutmayan əhali döyüşə-döyüşə inancları da yaşadırdı. Döyüşənlər xalqın əqidəsini də qoruyurdu. Bu baxımdan əsgərlərimiz həm torpaqlarımızı qoruyurdu, həm də xalqın inanclarını.

İyulun 12-də ermənilər Tovuz rayonu istiqamətindən dövlət sərhədimizi pozmağa cəhd etdi. Əsgərlərimiz bu təxribatın da qarşısını qətiyyətlə aldılar. Düşmənin sərhəd boyu neçə-neçə dayaq məntəqəsi dağıdıldı, neçə-neçə döyüş texnikası, onlarla hərbçisi məhv edildi. Nazirlər kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: "Düşmənin texnikası, silah-sursat anbarları, dayaq məntəqələri, avtomaşınlar, sisternlər, canlı qüvvəsinin yerləşdiyi yerlər Azərbaycan Ordusu tərəfindən dəqiq və sərrast atəşlə məhv edilmişdir". Döyüşlər getdiyi müddətdə xalq ruhən döyüşən əsgərlərimizin yanındaydı. Avtobusda bir ağbirçəyin duası hamını duyğulandırdı: "Düşmən məğlub olsun, qurban kəsəcəm". Belə dualar yüzlərlə, minlərlə olub. Yəni, xalqımızın ən böyük murazı torpaqlarımızın işğaldan azad edilməsidir.

Ordu hissələrimiz Tovuz döyüşlərində qələbə qazandı. İctimaiyyət 2016-cı ilin Aprel, 2018-ci ilin may, 2020-ci ilin iyul döyüşlərində qazanılan qələbələri Böyük Qələbənin başlanğıcı bilir…

**Gülsurə HÜSEYNOVA,**
**Bakı şəhəri**

Dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan, xeyirxahlıq və mərhəmət duyğularının ifadəsi olan Qurban bayramı həm həmrəylik duyğularını gücləndirir, həm də insanın kamil insan kimi formalaşmasında əhəmiyyətli rol oynayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: "Qurban bayramı islamın bir din kimi tamamlanması və mənəvi-əxlaqi qurtuluş yolu olaraq insanlara bəxş edilməsi ilə əlamətdardır". Biz gənclər həm valideynlərimizin söhbətləri, həm də ölkə başçısının belə dəyərli fikirləri ilə böyümüşük, təhsil almışıq. Bizim əsl vətəndaş kimi formalaşmağımızda bunlar da mühüm əhəmiyyət kəsb edib.

Qurban bayramı insanlar arasında qarşılıqlı səmimiyyəti də inkişaf etdirir. Bu bayram duyğuları da eyniləşdirir, duyumları da. Həmin gün insanların baxışlarında ən xoş ovqat görürsən. Həmin gün qayğılılar da qayğısını unudur. Azərbaycanda hamının bir qayğısı, bir narahatlığı var: müharibə. Hamı bir niyyətin bəndəsidi: torpaqlarımız işğaldan azad edilsin. Hamı bir inamla yaşayır: Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad edəcək. Bu inam 2016-cı ilin Aprel döyüşlərinə əsaslanır, Günnüt zəfərinə əsaslanır, qələbə ilə nəticələnmiş iyul döyüşlərinə əsaslanır. Azərbaycan əsgəri bir daha təsdiqlədi ki, dünyada ən güclü ordular sırasında olan Azərbaycan Ordusu qüdrətlidir.

Builki Qurban bayramını ictimaiyyət də, hərbi qulluqçular da qələbə ovqatı ilə qeyd edir. Biz vətəndaşların, deməli Vətənin istəyini onlar gerçəkləşdirəcəklər. İnanırıq ki, Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrini qələbə ilə tamamlayacaq və Böyük Qələbənin ovqatı da bayram ovqatı ilə qeyd ediləcəkdir. Bu, məmləkətin Azərbaycan əsgərinə dönməz güvəncinin, inamının təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə qətiyyətlə bildirib ki, Azərbaycan xalqı, Azərbaycan dövləti Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəkdir.

**Şəbnəm BEHBUDZADƏ,**
**Bakı şəhəri**

# "Azərbaycan-Türkiyə təlimlərinin Tovuz istiqamətindəki döyüşlərlə əlaqələndirilməsi siyasi savadsızlığın göstəricisidir"



Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq ölkəmizdə hər iki ölkənin Quru Qoşunları və Hərbi Hava Qüvvələrinin iştirakı ilə genişmiqyaslı birgə döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin keçirilməsi Ermənistan mətbuatında vəziyyətin gərginləşməsində maraqlı qüvvələr tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində baş verən döyüşlərə və ya hazırda keçirilən Rusiya-Ermənistan birgə hərbi təlimlərinə cavab kimi təqdim edilir.

Ehtiyatda olan polkovnik-leytenant İsa İsmayılov AZƏRTAC-a açıqlamasında bildirib ki, Azərbaycan ilə Türkiyə arasında ilk hərbi müqavilə 1992-ci ildə imzalanıb, yəni, bu əlaqələrin artıq 28 ili tamam olur. Daha sonrakı illərdə isə Türkiyə ilə Azərbaycan arasında bu sahədə imzalanan bir çox digər müqavilələr də bir sıra normativ-hüquqi aktlara söykənir. Azərbaycan Ordusunun hərbi qulluqçularının Türkiyədə təhsil alması, birgə hərbi təlimlərin keçirilməsi, texniki və elmi sahədə əməkdaşlıq və Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının mütəmadi təşkil edilməsi kimi tədbirlər əməkdaşlıq barədə imzalanan müqavilələrdə əksini tapıb. Sözsüz ki, iki ölkə arasındakı hərbi əlaqələrin inkişafına təkan verən ən önəmli amillərdən biri də məhz birgə hərbi təlimlərin keçirilməsidir.

Təbii ki, ermənipərəst qüvvələr vəziyyətin gərginləşməsində maraqlı olduqları üçün təlimlərin indiki vaxtda keçirilməsini guya iyulun 12-dən 17-dək Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində baş verən döyüşlərə və ya hazırda Ermənistanda keçirilən Rusiya-Ermənistan birgə hərbi təlimlərinə cavab kimi təqdim edəcəklər. Ancaq tam səmimiyyətlə və məsuliyyətlə deyə bilərəm ki, kiminsə bu təlimləri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş verən əməliyyatlarla əlaqələndirməsi yalnız gülüş doğura bilər. Belə bir ehtimalı irəli sürmək həm siyasi savadsızlığın, həm də bir hərbçi kimi qeyri-peşəkarlığın göstəricisidir. Bu təlimlər inkişaf edən Azərbaycan-Türkiyə hərbi əlaqələrinin növbəti mərhələsidir və hər iki tərəflə razılaşdırılaraq, illik plana uyğun olaraq keçirilir.

"Təlimlərin hazırlanması və keçirilməsi barədə cüzi anlayışı olan hər kəs bilir ki, bu cür genişmiqyaslı təlimləri bir neçə gün ərzində razılaşdırıb keçirmək qeyri-mümkündür. Çünki, planlaşdırma, razılaşdırma, təlimlərə hazırlıq və təlimlərin keçirilməsi protokol qaydalarına uyğun olaraq böyük vaxt tələb edən və uzun sürən prosesdir.

Birgə təlimlər əvvəllər də keçirilib, həm də ildə bir neçə dəfə və belə təlimlərin səmərəli olmasını zaman artıq sübut etmişdir.

Təlimlərin keçirilməsində əsas məqsəd hər iki ölkənin müvafiq qoşun növləri şəxsi heyətinin döyüş hazırlığı səviyyəsini artırmaq, onların birgə əməliyyatlarda iştirak etmək bacarığını yüksəltmək, həmçinin aviasiya vasitələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq və hər iki ölkənin hərbi qulluqçularının döyüş uzlaşmasını yüksək səviyyədə saxlamaqdır. Azərbaycan ilə Türkiyə arasında keçirilən birgə hərbi təlimlər həm iki ölkənin hərbi qulluqçularının peşəkarlığının artırılmasına, eyni zamanda, bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasına yönəlib", - deyə ehtiyatda olan polkovnik-leytenant İ.İsmayılov qeyd edib.

İ.İsmayılov deyib: "Azərbaycan və Türkiyə hərbi qulluqçuları bir çox beynəlxalq təlimlərdə və sülhyaratma əməliyyatlarında çiyin-çiyinə fəaliyyət göstərirlər. Düşünürəm ki, əvvəllər baş tutan tədbirlər, eləcə də iyulun 29-dan avqustun 10-dək ölkəmizdə Quru Qoşunları və Hərbi Hava Qüvvələrinin iştirakı ilə Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri də birgə fəaliyyətlərin uzlaşmasında, eləcə də koordinasiyasında faydalı olacaqdır. Hesab edirəm ki, növbəti təlimlər də, uğurla başa çatacaq, qarşıya qoyulan döyüş tapşırıqları keyfiyyətlə, peşəkarlıqla yerinə yetiriləcək və hər iki ordunun döyüş qabiliyyətinin artırılmasına layiqli töhfə verəcəkdir".

# Təkmilləşmə kursu peşəkarlıqla aparılır

*Bu gün elmi texnologiya sürətlə inkişaf etdiyindən bilik və peşəkarlığımız nə qədər yüksək olsa da, hər addımda təkmilləşdirməyə ehtiyac duyuruq. İndi elə bir zəmanədə yaşayırıq ki, təkmilləşməsən, yeniliyi qəbul etməsən, ümumi inkişafdan geri qalarsan, həyatın axarı ilə ayaqlaşa bilməzsən. Bu gün hərbi hissə və birləşmələrimizdə də bu istiqamətdə zəruri və səmərəli işlər görülür. "N" hərbi hissəsindəki tədris otaqları da məhz şəxsi heyətin biliklərinin təkmilləşdirilməsi və peşəkarlığının artırılması üçün nəzərdə tutulub. Təcrübəli zabitlər mütəmadi olaraq burada məşğələlər keçir, yeni bilik və vərdişləri şəxsi heyətə öyrədirlər. Onlar çalışırlar ki, əsgərlərin hazırlığı yüksək olsun. Çünki təcrübəli və bacarıqlı əsgərlər qarşıya qoyulan tapşırıqları daha böyük peşəkarlıqla yerinə yetirirlər.*

Hərbi hissədə olarkən zabit Yaqub Qasımovdan öyrəndik ki, hazırda tədris otağında sürücülər üçün təkmilləşdirmə kursları keçirilir. Məşğələləri yaxından izləmək üçün tədris otaqlarına yollandıq. Hərbi hissənin ərazisində səliqə-sahman və təmizlik hökm sürürdü.

Torpaqlarımızın azadlığı uğrunda şəhid olan zabit və əsgərlərimizin şərəfinə düzəldilmiş guşənin ətrafına çəmən salınıb. Sıra ilə əkilmiş qızılgül kolları guşəyə xüsusi yaraşıq verir, könül oxşayır. Hərbçilər guşənin qarşısından keçdikcə əsgəri salam verirlər.

Aprel döyüşlərinin iştirakçısı olan zabit Yaqub Qasımov dedi ki, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. "Ordu sıralarına çağırılan gənclər çox vətənpərvərdirlər. Onlar Vətənə xidmət etməyi həyatlarının mənası bilirlər. Bir qayda olaraq üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlirlər. Ən əsası odur ki, torpağa, Vətənə ürəkdən bağlıdırlar. Əsgərlərimiz hər an torpaqlarımızı erməni işğalçılarından azad etməyə hazırdırlar. Ordumuzun Tovuz istiqamətindəki döyüşlərdə qazandığı ürəkaçan uğurlar əsgərlərimizin vətənpərvərlik hisslərini daha da coşdurub, düşmənə olan nifrətini daha da artırıb".



Tədris otağının qarşısında leytenant Murad Həmidovla görüşdük. O bildirdi ki, hazırda sürücülər tədris otaqlarında bilik və təcrübələrini artırır, bacarıqlarını daha da təkmilləşdirirlər. "Komandanlıq tədris otaqlarında məşğələ keçmək üçün hər cür şərait yaradıb. Mövzuya uyğun olaraq dərs prosesində əyani vəsaitlərdən də səmərəli istifadə edirik. Sürücülərimiz öz ixtisaslarının peşəkarlarıdırlar. Buna baxmayaraq, mütəmadi olaraq bilik və bacarıqlarını daha da təkmilləşdirirlər. Səmərəli keçən dərslərin nəticəsində sürücülərimizin peşəkarlığı gündən-günə artır. Peşəkarlıq yüksək olanda isə uğur və qələbə gətirir".

Dərsin gedişini izləyirik. Leytenant Murad Həmidov məşğələnin mövzusunu şəxsi heyətə geniş izah edir, yeni toplanmış məlumatları onların nəzərinə çatdırır. Gənc zabit mövzunu sürücülərə danışdıqca əyani vəsaitlərdən də istifadə edir. Yeri gəldikcə əsgərlərə mövzuya uyğun suallar verir, onların cavablarını təmkinlə dinləyir. Sürücülər diqqətlərini məşğələnin gedişinə yönəldir, biliklərini daha da təkmilləşdirməyə çalışırlar. Onların verdikləri cavablardan hiss olunur ki, bilikləri, bacarıqları yetərincədir, öz ixtisaslarının peşəkarlarıdırlar. Peşəkar olduqlarına görədir ki, komandanlıq onların xidmətlərindən razılıqla danışır.

Məşğələdə fasilə yaranan kimi əsgərlərlə görüşüb söhbət etdik, onların xidmət yolları ilə tanış olduq. Gənc əsgər Pərviz Kazımlı ordu sıralarına Salyan rayonundan çağırılıb. Türkiyədə ali təhsil alıb. Xidmətinin ilk günlərini yaşayan gənc əsgər Pərviz Kazımlı yüksək ovqatda idi. Söhbət zamanı dedi ki, Vətənə əsgər olmaq, torpaqlarımızın keşiyində dayanmaq hər birimizin müqəddəs borcudur. "Biz bu borcu şərəf və ləyaqətlə yerinə yetirəcəyik. Hərbi andı qəbul etdiyim günü bütün ömrüm boyu xatırlayacağam. Həmin gün mən Vətənə sədaqətlə xidmət edəcəyimə, yurdumuzu göz bəbəyim kimi qoruyacağıma and içdim. Təkcə xidmətimin sonuna deyil, ömrümün axırına kimi içdiyim andə sadiq qalacağam. Xidmətə başladığım qısa müddət ərzində müəyyən hərbi bilikləri mənimsəmişəm. Hərbi bilikləri öyrəndikcə xidmətə marağım daha da artır. Çalışacam ki, komandirlərin bütün əmr və tapşırıqlarını bacarıqla yerinə yetirim, nümunəvi əsgər olum".

Əsgər Səxavət Şahbalayev altı aydır ki, Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirir. Əsgər söhbət zamanı dedi ki, əvvəllər bizdən böyüklər: "Ordu həyatı kişilik məktəbidir" - söyləyəndə bu sözün mənasını o qədər də dərindən anlamaz, əhəmiyyət verməzdim. "Amma ordu sıralarına çağırılandan sonra gördüm ki, doğrudan da, elədir. Həqiqətən də, ordu həyatı kişilik məktəbidir. Biz gənclər xidmətə çağırılandan sonra burada bərkiyir, cəngavərləşirik. Bu gün torpaqlarımızın keşiyində dayanmaq, yurdumuzu qorumaq kimi vəzifələr bizim çiyinlərimizə düşür. Biz əsgərlər isə bu müqəddəs vəzifələrin öhdəsindən layiqincə gələcək, düşməndən şəhidlərimizin intiqamını alacağıq".

Daha sonra məşğələdə fəal iştirak edən əsgərlərdən İntiqam Əliyev, Süleyman Süleymanlı, Fərid Əkbərli, İmran Məmmədov, Cavid Cavadzadə və başqaları ilə görüşüb söhbət etdik, xidmətləri haqqında ürək sözlərini dinlədik. Onların vətənpərvərliyindən ürəyim qürurla doldu.

Bir daha əmin olduq ki, hərbi hissənin şəxsi heyəti qarşısında dayanan vəzifələri bacarıq və peşəkarlıqla yerinə yetirməyə qadir və hazırdır.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

## Naxçıvan Qarnizonu Qoşunlarında yeni tədris dövrü başlayıb

*2020-ci tədris ilinin ikinci tədris dövrünün başlanması ilə əlaqədar bütün hərbi hissələrdə şəxsi heyətə sıra baxışı keçirilib, bölmələrin maddi-tədris bazası və tam təchizatı yoxlanılıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirlərdə tədris dövrü üçün əsas məqsəd və vəzifələr diqqətə çatdırılaraq qoşunların bir mərkəzdən idarə olunmasının təkmilləşdirilməsi və uzlaşmış fəaliyyətə nail olunması məqsədi ilə məşğələ və təlimlərin davamlı keçiriləcəyi bildirilib.

Bölmə komandirləri öhdəcilik götürərək digər bölmə komandirlərini də yeni tədris dövründə döyüş hazırlığı üzrə ən yaxşı olmaq üçün yarışlara dəvət ediblər.

Birləşmə və hissələrdə təntənəli keçidlərdən sonra Naxçıvan Qarnizonu Qoşunlarının qarşılıqlı əlaqələndirilməsi məqsədi ilə yeni tədris dövrünün ilk məşğələlərinin keçirilməsinə başlanılıb.

Bölmələrdə döyüş hesabatı və tapşırıqlar dəqiqləşdirilir, qoşunlar döyüş hazırlığı üzrə sutkanın gecə və gündüz vaxtlarında bölmələr tərkibində həyəcan siqnalı ilə məşq etdirilir.

# Təlimlərə qatılan hərbçilərin bayram günlərində istirahətləri təşkil olunub

*Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərində iştirak edən Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının bayram və istirahət günlərində mənalı istirahətləri təşkil olunub.*



Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçuları Naxçıvan Muxtar Respublikasının tarixi-mədəni yerlərini, "Əshabi-Kəhf Ziyarətgahı" dini-mədəni abidə kompleksini, Batabat yaylağını, Şahbuz Dövlət Təbiət Qoruğunu ziyarət ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, türkiyəli hərbçilər gezinti çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində şəxsi heyətin sosial-məişət şəraiti, silah və texnika ilə tanış olub, əsgərlərimizlə birlikdə nahar ediblər.



AZƏRBAYCAN ORDUSU

# Ordu xalqın dəstəyindən güc alır

*Qurban bayramı ərəfəsində Müdafiə Nazirliyinin, Azərbaycan Milli Kulinariya Mərkəzinin və Azərbaycan Milli Kulinariya Assosiasiyasının birgə təşkilatçılığı ilə ön xətdə yerləşən "N" hərbi hissədə tədbir keçirildi.*



Tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, Qeyri-hökumət təşkilatlarının nümayəndələri, "Mangal Steak House" restoranlar şəbəkəsinin rəhbərliyi, müharibə veteranları, qazilər, şəhid ailələri və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Əvvəlcə ulu öndər Heydər Əliyevin, torpaqlarımızın azadlığı və suverenliyi uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət himni səsləndirildi.

Məlumat üçün qeyd edək ki, ilk gündən Azərbaycan mətbəxinin tədqiqində, əhalinin kulinariya sahəsində maarifləndirilməsində, kulinariya mədəniyyəti və təcrübəsinin yayılmasında, milli mətbəx nümunələrinin toplanması, dünya miqyasında tanıdılması və təbliği istiqamətlərində mühüm işlər görən Azərbaycan Milli Kulinariya Mərkəzi (AMKM) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.04.1991-ci il tarixli Qərarı ilə yaradılıb. Ölkəmizin aparıcı kulinarlarını, alim və mütəxəssislərini öz ətrafında birləşdirən AMKM-in üzvləri Ümumdünya Kulinariya Təşkilatları Birliyinin, YUNESKO-nun Xalq Yaradıcılığı Təşkilatının üzvüdür və bu günə kimi çoxlu sayda Dünya Kulinariya Konqreslərində, Avropa Konfranslarında fəal iştirak edib, dünyanın bir çox qabaqcıl ölkələrində keçirilən kulinariya çempionatlarında və olimpiadalarında milli mətbəximizi layiqincə təmsil edərək mükafatlar qazanıblar.

Əsgərlərlə görüşə gələn AMKM-nin 30-a yaxın üzvü, dünya şöhrətli aşpazlar kəsdikləri qurban ətindən milli mətbəximizin gözəl təamlarından olan buğlama və bozbaş bişirdilər, həmçinin reyhan şərbəti və doğramac hazırladılar. Hazırlanan nemətlərdən yaxın ərazidə yerləşən digər hərbi hissələrin də şəxsi heyəti üçün pay göndərildi.

Məşhur kulinaristlər, həmçinin ordu aşpazlarına usta dərsləri keçdilər, hərbi hissənin kitabxanasına kulinariya kitabları hədiyyə etdilər.

Azərbaycan Milli Kulinariya Mərkəzinin (AMKM) baş direktoru, Şöhrət ordenli Əməkdar mədəniyyət işçisi Tahir Əmiraslanov əsgərləri salamlayaraq, onlara həmkarlarının və tabeliyində olan kollektivin ən xoş arzularını çatdırdı. O, bildirdi ki, müasir dövrdə ordu quruculuğunda qazanılan uğurlar Azərbaycan cəmiyyətində böyük ruh yüksəkliyi yaradıb. "Əziz və dəyərli zabit, gizir və əsgərlərimiz. Vətəni qorumaq kimi müqəddəs vəzifələr yerinə yetirənlərin qarşısında çıxış etmək çox qürurlu və həyəcanlıdır. Hər biriniz bizim güvənc yerimiz, fəxrimizsiniz. Sizi İslam dinində mənəvi birliyin, saflıq və mərhəmətin rəmzi olan Qurban bayramı münasibətilə təbrik edir, çətin və şərəfli xidmətinizdə müvəffəqiyyətlər, ailə səadəti arzulayıram. Hər bir azərbaycanlının ən böyük arzusu Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunması və üçrəngli bayrağımızın doğma Qarabağımızda dalğalanmasıdır. Biz ordumuzun qüdrətinə inanır və güvənirik. Aprel və Günnüt zəfərində olduğu kimi, cəbhənin Tovuz istiqamətində düşmənin təxribatı zamanı Azərbaycan Ordusunun nümayiş etdirdiyi hərbi güc bir daha düşmənə və havadarlarına göstərdi ki, dövlətin və xalqın dəstəyi nəticəsində hərbi qüdrətini artıran doğma ordumuzu heç bir qüvvə sarsıda bilməz. Bu gün burada toplaşmış igidlərimizə həsədlə baxıram və düşünürəm ki, onların hər biri xalqın etimadını qazanmış hünərli Vətən oğludur. Doğrudan da, dövlət, xalq o vaxt güclüdür ki, onun qüdrətli ordusu var. Hamımız qətiyyətli Ali Baş Komandanımıza və əsgər balalarımıza güvənirik. İnanırıq ki, Azərbaycanın hərbi gücü ilə torpaqlarımız tezliklə işğaldan azad ediləcək. Şanlı ordumuzda xidmət edən, Vətənimizi düşməndən layiqincə qoruyan bütün əsgərlərimizə Allahdan güc-qüvvət diləyirik".

Professor Tahir Əmiraslanov belə müqəddəs gündə ön xətdə xidmət edən əsgərlərlə görüşün təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi.

Polkovnik Rasim Manafov Müdafiə nazirinin bayram təbrikini şəxsi heyətə çatdırdıqdan sonra belə mötəbər və xeyirxah tədbirin ərsəyə gəlməsində zəhməti keçən hər kəsə təşəkkür etdi. Zabit qeyd etdi ki, xalq orduya güvəndiyi kimi, ordu da xalqın dəstəyindən güc alır. Qurban bayramının tarixindən, mahiyyətindən, aşıladığı fəzilətlərdən, sosial münasibətlərə təsirindən, bəşəriliyindən danışan zabit onu da vurğuladı ki, bu kimi tədbirlərin ruh yüksəkliyi ilə qeyd olunması şəxsi heyətin mənəvi-psixoloji hazırlığında da mühüm əhəmiyyət kəsb edir, onlara döyüş əzmi və qələbə ruhu aşılayır. "Müqəddəs Qurban bayramı ilə əlaqədar şəxsi heyətə könül xoşluğu nəsib etdiyinizə görə hərbi hissənin, o cümlədən Müdafiə Nazirliyinin rəhbərliyi adından hər birinizə təşəkkürümü bildirirəm. Təşəkkür edirik ki, bu müqəddəs Qurban bayramında müqəddəs vəzifə yerinə yetirən əsgərlərimizi unutmadınız, diqqətinizin və dəstəyinizin daim bizimlə olduğunu bir daha nümayiş etdirdiniz. Nəcib adətlərimiz, xeyirxah əməllərimiz qədimdən xalqımızı başqa millətlərdən fərqləndirən başlıca xüsusiyyətlərdəndir. Qəlbində Vətən sevgisi, millət təəssübkeşliyi olan insanlarımız daim xeyirxah işləri ilə dövlətə və xalqa xidmət edirlər. Belə xeyirxah təşəbbüsləriniz üçün sizin hər birinizə bütün şəxsi heyətimiz adından təşəkkürümüzü bildirir, hər birinizi, ailələrinizi, yaxınlarınızı Qurban bayramı münasibətilə təbrik edir, uzun ömür, cansağlığı arzulayırıq."



Çıxış edən digər qonaqlar da şəxsi heyəti Qurban bayramı münasibətilə təbrik edərək Azərbaycan Ordusunun xalqımızın qürur mənbəyi, güvənc yeri olduğunu bir daha diqqətə çatdırdılar. Hərbi vətənpərvərlik, qəhrəmanlıq mövzusunda şeirlər səsləndirdilər. İnandıqlarını bildirdilər ki, tezliklə torpaqlarımız Ali Baş Komandanımızın rəhbərliyi ilə işğaldan azad olunacaq və növbəti qurbanlarımız həsrətində olduğumuz ata-baba torpaqlarımızda kəsiləcək. "Bu gün hər birimiz üçün danılmaz faktdır ki, Azərbaycan Ordusu son illər hərbi gücünü artıraraq dövlətçiliyimizin və ərazi bütövlüyümüzün əsas dayaqlarından birinə çevrilib. Kəmiyyət və keyfiyyət baxımından peşəkarlığının yüksəldilməsi, maddi-texniki bazasının gücləndirilməsi, düşmən təxribatlarının qarşısının qətiyyətlə alınması vətəndaşlarımızda ordumuza böyük inam yaradıb. Hər kəs əmindir ki, Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə üzərinə düşən tarixi missiyanı istənilən vaxt Böyük Qələbə ilə tamamlamağa hazır və qadirdir."

Əsgərlərə qələbə əzmi arzu edən qonaqlar xalqın mənəvi dəstəyinin daim onlarla olduğunu bildirdilər, güclü dövlətimiz, qüdrətli ordumuzla hər zaman fəxr etdiklərini vurğuladılar.

Sonra şəxsi heyət onlar üçün hazırlanmış bayram süfrəsinə əyləşib kulinaristlərin hazırladığı təamlardan yedilər.

Sonda polkovnik Rasim Manafov tədbirin yüksək səviyyədə təşkilinə, öz hədiyyələri və hazırladıqları bayram süfrəsinə görə peşəkar kulinaristlərə hərbi hissənin rəhbərliyi adından fəxri fərmanlar təqdim etdi, xatirə şəkli çəkildi.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Vətən sevgisi

*Şeir duyum deməkdi. Duyumu güclü olanlar sözün sıralanmasıyla gözəl poetik mənalar yarada bilir. Bu, şeiriyyətə bələdlikdi. Şeiriyyətə bələdliyin yaş həddi olmur. Aydan məktəblidir. Həm yaxşı oxuyur, həm də şeiri sevir. Qürurlanırsan ki, bu yaşda uşaq Vətənin müqəddəsliyini duyur. Onun şəhidlərimizə yazdığı şeir də Vətənə sevgi kimi oxunur. Kəlbəcər rayon (Abşeron) 20 saylı tam orta məktəbin 8-ci sinif şagirdi Aydan Aslanlı redaksiyamıza şeirlər göndərib. Şeirlərinin mahiyyəti deyir ki, Aydan gələcəkdə hansı peşəni seçirsə-seçsin, incə duyumu, şeirə, şeiriyyətə bağlı duyumu onun əsl vətəndaş kimi formalaşacağının, cəmiyyətdə özünəməxsus mövqe tutacağının zəmanətidir.*

**"Azərbaycan Ordusu"**

Aydan ASLANLI

## Analar deyir ki, Vətən sağ olsun…

Vətən gözümüzün nurudur deyə,
Şəhidlər ölməzdir, Vətən bölünməz,
Sizin ruhunuzun qüdrətidir ki,
Bu yerdə düşmənlər bir də görünməz.

Bu torpaq qanınla müqəddəsləşib,
Qanındır torpağı ucalaşdıran.
Sənin qətiyyətin, qüdrətin olub
Üç rəngli bayrağı göyə qaldıran.

İşğaldan qurtarar torpaqlarımız,
Əsgər oğulların qətiyyətiylə.
Döyüş yolunuzu davam etdirər,
Əsgər qardaşların sədaqətiylə.

Dağın gözlərinin qaçır yuxusu,
Əsgər yuxusundan oyanan kimi.
Ana Vətən dedin sən də Vətənə,
Qorudun Vətəni sən anan kimi.

Bu yay axşamında göylər duydu ki,
Xalqın Mübarizi, Muradları var.
Şəhidlik bu xalqın taleyindədir,
Bu xalqın yenilməz Poladları var.

Bu yay axşamında, bu gecə vaxtı
Göylərdən ulduzlar axır, şəhidim.
Səsinə səs verər Mübariz, Fərid,
Onları döyüşə çağır, şəhidim.

Əsgərlər qoymaz ki, Azərbaycanda
Ana-bacıların gözləri dolsun.
Şəhid anaları bizə deyir ki,
Millətim sağ olsun, Vətən sağ olsun.

## Şəhidim

Sənin qeyrətini, döyüş ruhunu,
Düşmənlər döyüşdə gördü, şəhidim.
Vüqarlı bir dağdı Vətənə sevgin,
Düşmənə nifrətin Kürdü, şəhidim.

Qələbə ruhunun eynini gördüm,
Göylərdən yerlərə gələn səsdə sən.
Vətən torpağını qoruyan əsgər,
Vətən, torpaq dedin son nəfəsdə sən.

Sən də şəhid oldun Vətən yolunda
İndi hər ürəkdə heykəlin vardır.
Sən də döyüşürdün, sənin yolunu
Davam etdirənlər nə bəxtiyardır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Məmmədov Səbuhi Kamran oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 469
Nüsxə 3980